№ 91 (3933) 22 may 2018-ci il

# Xalq Cümhuriyyəti dönəmində Azərbaycan iqtisadiyyatı

“Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldır”. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurucularından olan Məmməd Əmin Rəsulzadənin bu fikirləri Yaxın Şərqin ilk demokratik ölkəsində iqtisadiyyata, iqtisadi müstəqilliyə verilən önəmin, onun dövlətçilik üçün nə dərəcədə böyük əhəmiyyətə malik olmasının real göstəricisi qismində çıxış edirdi. Bu mənada təsadüfi deyil ki, Xalq Cümhuriyyətinin qurulmasından sonra xüsusi diqqət mərkəzində yer alan başlıca məsələlərdən biri məhz ölkədə tamam yeni parametrlərə əsaslanan, eyni zamanda siyasi müstəvidə görülən işləri tamamlayan, baza iqtisadiyyatına əsaslanan modelin tətbiqi ilə bağlı oldu.

O dövrün iqtisadi mənzərəsinə nəzər saldıqda sosial-iqtisadi müstəvidə xeyli sayda demokratik qərarların qəbul olunmasını görmək mümkündür. Düzdür, bunların bir çoxu Cümhuriyyətin ömrünün qısa olması səbəbindən tam icraya yönləndirilə bilmədi. Amma buna rəğmən, iqtisadi müstəvidə o dövr üçün titanik sayıla bilən əməllərə də imza atıldı. Xüsusən də sosial ədalətsizliyin ləğvi, insanların maddi rifah halının yüksəldilməsi istiqamətində mühüm işlər görüldü. Məmməd Əmin Rəsulzadənin sosial ədalətsizliyin aradan qaldırılmasının başlıca vəzifələrdən biri kimi müəyyən etməsi fonunda Cümhuriyyətdə iqtisadi islahatların Çar Rusiyasından fərqli olan fərqli bir mərhələsi başlandı. Sözügedən kontekstdə Şərqdə ilk parlamentli dövlətin fəaliyyətində sosial sferaya xüsusi diqqət ayrıldı, bu xüsusda çoxsaylı qanunlar qəbul olundu, konkret tədbirlər həyata keçirildi. Burada nəzərə almaq lazımdır ki, qeyd olunan dönəmdə mövcud tarixi, ictimai-siyai şərait səmərəlilik əmsalı yüksək olan iqtisadi siyasətin reallaşmasında əsas maneələrdən biri idi. Belə ki, o dövrədə beynəlxalq və daxili vəziyyət xeyli mürəkkəb idi. Xüsusən də erməni terrorçularının qanlı fəaliyyəti, törətdikləri soyqırımlar, keçmiş İrəvan quberniyası ərazisində ermənilərin soyqırımına məruz qalan 150 mindən çox soydaşlarımızın tarixi vətənlərindən didərgin düşərək Azərbaycana pənah gətirməsi, əhalinin çoxluğunu təşkil edən kəndlilərin həyat şəraitini yaxşılaşdırmağın əsas amili olan torpaq məsələsinin həll olunmaması vəziyyəti çətinləşdirirdi. Amma bu problemlərin, xüsusən də sosial gərginliyi aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirildi. Eyni zamanda ümumi daxili məhsulda milli gəlirin və məşğulluq səviyyəsinin artırılması, əmək şəraitinin yaxşılaşdırılması, təhsil, səhiyyə, mənzil və kommunal təminatı səviyyəsinin yüksəldilməsinə nail olmaq üçün praktik addımlar atıldı. Bu məsələlərdə Cümhuriyyət dövründə hökumətin ilk kabinetində əkinçilik və əmək naziri vəzifəsini tutan "Hümmət" partiyasından Milli Şuraya üzv seçilmiş Əkbər ağa Şeyxülislamovun əməyi kifayət qədər yüksək oldu. Peterburq Yol Mühəndisliyi İnstitutunun məzunu olan, İstiqlal Bəyannaməsinin qəbulunda iştirak edən Şeyxülislamov sosial məsələlərin həllində böyük peşəkarlıq nümayiş etdirə bildi. Burada on minlərlə qaçqının durumunun yaxşılaşdırılması məqsədilə də mühüm addımlar atıldı. Xüsusən də bu təbəqədən olan insanların maddi ehtiyaclarının ödənilməsi və yerləşdirilməsi, onlara tibbi xidmət göstərilməsinin təşkili və bununla əlaqədar digər məsələlərə xüsusi qayğı göstərildi. Hökumət bu məqsədlə "Qaçqınlara yardımın təşkili edilməsi haqqında", "Qaçqınların yerləşdirilməsi üçün təcili tədbirlərin görülməsi haqqında" və digər bir neçə bu qəbildən olan qərarlar qəbul etdi. Ölkə parlamentin 1920-ci ilin yanvarında "Qaçqınların ehtiyacları üçün 21 milyon manat pul ayrılması haqqında" qanun qəbul edərək qaçqınların sosial problemlərinin həlli istiqamətində zəruri addımlar atdı. O da xüsusi qeyd olunmalıdır ki, ölkədəki ağır vəziyyətə baxmayaraq hökumət Gürcüstan və Ermənistanda yaşayan soydaşlarımıza da müntəzəm yardım göstərirdi.



Sosial müstəvidə atılan daha bir önəmli addım parlamentin 1919-cu il yanvarın 21-də qəbul etdiyi qərarla Xalq Cümhuriyyəti hökumətində əmək münasibətləri və onunla əlaqədar digər məsələləri tənzimləmək məqsədilə Əmək Nazirliyi təsis edilməsi oldu. Yaradıldıqdan sonra icra və nəzarətedici səlahiyyət əldə edən Əmək Nazirliyi ilk növbədə fəhlələrin əməyinin mühafizəsi və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə fəhlə və müəssisə sahibləri daxil olmaqla 19 nəfərdən ibarət xüsusi komissiya formalaşdırdı. Bununla kollektiv müqavilənin şərtlərinə bir sıra dəyişikliklər olundu, fəhlələrin həm iş şəraiti yaxşılaşdırıldı, həm də əmək haqları yüksəldildi. Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə təşkil edilən Xalq Cümhuriyyəti Hökumətinin 14 nazirdən ibarət dördüncü hökumət kabinetində isə inflyasiya ilə əlaqədar olaraq müavinət və əmək haqlarının artırılması hökumətin sosial siyasətinin əsas prioritetlərini təşkil etməyə başladı. Eyni zamanda Əmək Nazirliyinin nəzdində əməyin mühafizəsi, əməkhaqqı dərəcələrini və əmək mübahisələrini tənzimləmək məqsədilə Əmək Müfəttişliyi təsis olundu. Beşinci hökumətin fəaliyyəti dövründə isə ehtiyacı olanların kommunal xidmətlərdən, nəqliyyatdan güzəştlə istifadə etməsi, maaşların artırılması və qaçqınlara əvəzsiz maddi yardım göstərilməsi kimi sosial güzəştləri nəzərdə tutan qərarlar qəbul edilib. İnflyasiya ilə əlaqədar olaraq əhalinin müxtəlif təbəqələrinin maaşlarının artırılması məsələsi AXC hökumətinin sosial siyasətinin mühüm istiqamətini təşkil edirdi. Bundan başqa Azərbaycan hökuməti milliyyətindən asılı olmayaraq sosial vəziyyəti ağır olanlara yardım göstərirdi. Məsələn, hökumət 1919-cu ildə Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti ilə yanaşı, rus və yəhudi xeyriyyə cəmiyyətinə, erməni və yəhudi milli şuralarına və digər cəmiyyətlərə uşaqların, qocaların və digər əhali qruplarının saxlanılması üçün xeyli vəsait ayırıb, 1920-ci ilin fevralında Gürcüstanda baş verən zəlzələ nəticəsində ziyan çəkmiş əhaliyə yardım edib. Milli Məclisin iqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə burada bir maraqlı məqama diqqət çəkərək vurğulayır ki, Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə parlamentin müzakirəsinə müxtəlif sahələrə aid 315 qanun layihəsi təqdim olunub və onlardan 10-u sosial sahəni əhatə edib. Onun sözlərinə görə, əmək haqlarının, pensiyaların artırılması, sahibkarlığın inkişafı istiqamətində Xalq Cümhuriyyəti dönəmində mühüm addımlar atılıb: “Əsas məqsəd insanların maddi rifah halının yüksəldilməsi idi və bu, Xalq Cümhuriyyətini yaradanların, onu idarə edənlərin sosialyönümlü siyasətə üstünlük verməsinin mühüm göstəricilərindən idi”.

Qeyd edilənlərə paralel olaraq iqtisadi müstəvidə Cümhuriyyət dönəmində digər vacib addımlar atıldı. Məsələn, bu sahədə ən diqqət çəkən məqamlardan biri milli valyutanın dövriyyəyə buraxılması oldu. Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadiyyat kafedrasının dosenti Elşən Bağırzadə qeyd edir ki, Cümhuriyyət dönəmində qısa müddət ərzində Azərbaycan Dövlət Bankı adlanan Mərkəzi Bank quruldu və bu bankın sədrliyinə ölkənin ilk iqtisadçılarından olan Məhəmmədhəsən bəy Baharlı gətirildi: “Mərkəzi Bank pul kütləsinin və bank fəaliyyətinin tənzimlənməsinə və inflyasiyanın nəzarət altına alınması işinə başladı. Bu arada Azərbaycan “Bakı bondları” adlanan milli valyuta dövriyyəyə buraxıldı. Dövlət büdcəsinin dayanıqlılığını təmin etmək məqsədilə birbaşa və dolayı vergilər, eləcə də gömrük rüsumları tətbiq edildi. Maliyyə bazarının inkişafı istiqamətində atılan mühüm addım isə Bakı bələdiyyə idarəsinin istiqrazlar buraxmağa başlaması oldu. Bütövlükdə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti fəaliyyət göstərdiyi müddət ərzində maliyyə, vergi, bank sahələrini əhatə edən bir çox qanun layihəsi hazırladı və onların böyük əksəriyyətini qəbul etdi”.

Atılan daha bir önəmli addım ölkədə mülkiyyətin çoxnövlülüyünün qanunla təsbit edilməsi, Bakı Xalq Komissarları Soveti tərəfindən neft sənayesinin və ticarət donanmasının milliləşdirilməsi ilə bağlı verilən qərarların ləğv olunması, neft mədənləri, zavodlar, ticarət gəmiləri və onların idarəçiliyinin əvvəlki sahiblərinə qaytarılması oldu. Bu hal həm də sahibkarlığın inkişafına yeni ciddi təkan oldu. Kənd təsərrüfatının inkişaf etdirilməsi, torpaq islahatı, sənayenin yüksəlişi istiqamətində atılan addımlar, xarici investisiyaların ölkəyə gəlişi istiqamətində də zəruri addımlar atıldı. İxracın stimullaşdırılması, idxalın isə milli iqtisadi mənafelərə uyğun şəkildə məhdudlaşdırılması istiqamətində qəbul edilən qanunlar tezliklə öz səmərəsini verməyə başladı. Artıq yerli istehsalın artan səviyyəsi həm iqtisadi tərəqqini dinamik hala gətirir, həm də ixrac həcmini artırırdı. Yeri gəlmişkən qeyd edək ki, xarici ticarəti maliyyələşdirmək məqsədilə qısa müddət ərzində 20 milyon manatlıq fond yaradıldı və bu fonddan xarici ticarət əməliyyatlarının kreditləşdirilməsində istifadə edilməyə başlandı. Bu, o dönəmdə iqtisadiyyatın neftdən asılılığını tədricən aradan qaldırırdı. Görülən işlər ona gətirib çıxarmışdı ki, 1919-cu ildə Azərbaycanın dövlət büdcəsi artıq 665 milyon manat təşkil edirdi. Onun əsas hissəsi neft satışı və gəlirə görə vergilər idi. Azərbaycan neftinin alıcısı ilk illərdə Rusiya idi, sonra isə Avropa ölkələri də qoşuldu. Bununla yanaşı, büdcənin gəlir mənbəyi sırasında şərab, tütün və neft üçün olan aksiz vergiləri də xüsusi yer alırdı. O illərdə yaradılmış gömrük xidməti isə xəzinəyə 100 milyon manat vəsait ödəmişdi. Azad ticarət, eləcə də yük və sərnişin daşımaları üçün alınan rüsumlar da əsas gəlir mənbələri sırasında idi. İqtisadiyyatda neft sektorunun aparıcı roluna baxmayaraq, o illərdə Azərbaycan daha çox aqrar, xüsusilə də heyvandarlığa istiqamətlənmiş ölkə kimi tanınırdı. Onu da qeyd edək ki, bütünlükdə Cümhuriyyətin ticarət və iqtisadi əlaqələrində barter üsulundan istifadə edilirdi. Belə ki, gətirilən malların əvəzinə neft verilirdi. Bu fonda Amerika, Fransa, İtaliya və digər dövlətlərin istehsalı olan hərbi mallar, telefon aparatları, minik avtomobilləri, paravozlar, ərzaq məhsulları üçün Azərbaycan əsasən neft, pambıq, yun, ipək və gön ilə ödəmə edirdi. Bu və digər addımlar artıq ölkədə milli iqtisadiyyatın formalaşdırılmasına etibarlı zəmin yaradırdı. Amma təəssüf ki, bolşevik işğalı bunun davamına imkan vermədi. Lakin Cümhuriyyət ənənələri müasir Azərbaycanın sosial-iqtisadi inkişafında bu gün də yaşamaqdadır. Bütün bunlar isə ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanın siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq ideologiyasının bərqərar edilməsi nəticəsində mümkün olub. AXC ideyalarının yaşadığı müasir Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni hədəflərə doğru uğurla addımlayır, yeni böyük nailiyyətlərin müəllifinə çevrilir.

***Rüfət NADİROĞLU***

*İqtisadiyyat Nazirliyi tərəfindən KİV nümayəndələri arasında elan edilmiş “Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı” mövzusunda müsabiqəyə təqdim edilir*